

*"Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər".*

*Heydər Əliyev*

# ŞƏRƏFLİ ÖMÜR YOLU

Mədəniyyət və incəsənətimizin dəyərli və tanınmış şəxsiyyətlərindən biri, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professor Timurçin İlyas oğlu Əfəndiyevin 60 yaşı tamam olur.

Ömür elə bir nemətdir ki, o hamıya verilir: kimə çox, kiməsə az. Lakin illər insanlara deyil, insan özü illərə mənalı ömür verir. Məhz belə görkəmli ziyalılarımızdan olan, şərəfli ömür yolu yaşayan vətənpərvər vətəndaş, Azərbaycanşünas alim, professor Timurçin Əfəndiyev öz həyat və yaradıcılığını daima Azərbaycanın mədəniyyət və incəsənətinin inkişafı və tərəqqisinə həsr etmiş, elmi ictimaiyyətdə dəsti-xətti ilə tanınmışdır.

Mədəniyyət və incəsənətimizin inkişafında daima əsaslı dəyişikliklər və yeniliklər aparılmasında böyük xidmətləri olan professor T.Əfəndiyev Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru olduğu vaxtdan bu-



günkü günə qədər bu elm ocağının beynəlxalq aləmdə tanınmasında müstəsna xidmətlər göstərmişdir.

T.Əfəndiyevin şəxsi təşəbbüskarlığı və səyi nəticəsində bu gün ADMİU-da mədəniyyət və incəsənətin 35-ə yaxın sahəsi üzrə mütəxəssis hazırlanır. Bu ixtisaslar məzmununa və yaradıcılıq potensialına uyğun "Kulturologiya", "Sənətşünaslıq", "Rejissor sənəti", "Aktyor sənəti", "Musiqi sənəti" fakültələrində tədris olunur. Dünya təhsil təcrübəsində bu sayda yaradıcı ixtisasların bir universitetdə cəmlənməsinə nadir hallarda təsadüf edilir. Yaradıcılıq politrası baxımından rəngarəng olan bu ixtisasların vahid bir universitetdə fəaliyyəti incəsənət növlərinin bir-birinə qarşılıqlı əlaqə və təsirini şərtləndirir və unikal bir iqlim yaradır. Bu şərait öz növbəsində istedad səviyyəsi müxtəlif olan yaradıcı gənclərə qabiliyyət və bacarıqlarını tam şəkildə realizə və inkişaf etdirmək imkanı verir. 20 ilə yaxın bir müddətdə ADMİU-ya rektor kimi rəhbərlik edən professor Timurçin Əfəndiyev III kateqoriyaya aid kiçik bir institutu bu günkü dünya standartlarına cavab verən, özünün aspiranturası, doktoranturası, müdafiə soveti, tədris emalatxanaları, kitabxana, tədris teatrı, muzey, sərgi salonu, səsyazma

studiyası, kinolektoriya zalı, fotolaboratoriya, ixtisaslaşmış auditoriyalar, kompüter mərkəzi, nəşriyyat-poliqrafiya mərkəzi və s. olan ali dərəcəli universitet səviyyəsinə yüksəlmişdir. Azərbaycanda ilk dəfə olaraq professor T.Əfəndiyevin səyi nəticəsində ADMİU-da "Beynəlxalq mədəni əlaqələr", "Kulturologiya", "Balet sənəti", "Kino rejissorluğu", "Televiziya rejissorluğu", "Kinooperatorluq", "Xalçaçılıq", "Modelyer rəssam", "Teatr və dekor sənəti", "Reklam işləri üzrə rəssam", "Estrada rejissorluğu", "Dizayn işi" ixtisasları açılmışdır. Onu da qeyd edək ki, hazırda universitetdə bu ixtisaslar üzrə 2000-ə yaxın tələbə təhsil alır. Universitetdə ixtisasartırma fakültəsi, magistratura, xarici əlaqələr üzrə şöbələr və dekanlıq fəaliyyət göstərir. Universitet respublikada mədəniyyətin müxtəlif sahələri üzrə yüksək ixtisaslı kadrlar yetişdirməklə yanaşı, xarici ölkələr üçün də kadr hazırlamaq sahəsində xeyli təcrübə toplamışdır. Belə ki, bədii intellektual bazası kifayət qədər yüksək olduğu üçün ali məktəb hələ sovet dövründə Orta Asiya respublikaları, Rusiya Federasiyasının müsəlman əhalisi yaşayan regionları, Şərqi Avropanın bəzi ölkələri üçün də aktyor və rejissor kadrları hazırlamışdır. Respublikamız 1991-ci ildə dövlət müstəqilliyi qazandıqdan sonra universitetin beynəlxalq əlaqələri tamamilə yeni keyfiyyət mərhələsinə qədəm qoydu. Universitet Türkiyə Cümhuriyyətinin Memar Sinan (İstanbul), Veykent (İstanbul), Atatürk (Ərzurum), Süleyman Dəmirəl (Sparta) universitetləri ilə, Fransanın Tuluza 1 Universiteti, Mərakeş universitetləri və s. ilə əməkdaşlıq edir.

Qeyd etmək lazımdır ki, son illərdə İtaliyanın, Türkiyənin, Qazaxıstanın, Yaponiyanın və s. xarici ölkələrin vətəndaşları universitetin bədii təmayüllü təhsil ixtisaslarını bitirmişlər. ADMİU-nun təqdim etdiyi diplomlar xarici ölkələrdə tanınır və hörmətlə qarşılanır. Əcnəbi tələbələrin universitetdə təhsili ilə bağlı olaraq həm də hazırlıq fakültəsi fəaliyyət göstərir. Universitetin özünün kadr potensialının yüksəldilməsində professor T.Əfəndiyevin müstəsna xidmətləri vardır.

Universitetə görkəmli sənət adamlarının cəlb edilməsində, onlara elmi və fəxri adların verilməsində professor T.Əfəndiyevin şəxsi vətəndaşlıq mövqeyini xüsusi qeyd etmək lazımdır. Gənc nəslin inkişafı və onların elmi-pedaqoji fəaliyyətə cəlb olunması bu gün universitet rəhbərliyi qarşısında duran əsas məsələlərdən biridir.

200-dən artıq dərslik, dərs vəsaiti, monoqrafiya və elmi məqalələrin müəllifi olan professor T.Əfəndiyevin "Azərbaycan mədəniyyəti və incəsənəti", "Hüseyn Cavidin ideyalar aləmi", "Azərbaycan dramaturgiyasında metodlar", "Hüseyn Cavidin dramaturgiyası", "Böyük dramaturq", "XVIII əsr rus teatrı", "Ukrayna və Belorusiya teatrı", "Antik ədəbiyyat", "Rus teatrı", "Cəfər Cabbarlı və romantik dramlar", "Romantik dramaturgiyalarda tarixilik və bədiilik", "Azərbaycan kino tarixi oçerkləri" və s. fundamental əsərləri geniş ictimaiyyət tərəfindən həmişə maraqla və dərin rəğbətlə qarşılanmışdır. Akademik Yusif Məmmədəliyev adına "Humay" və digər mükafatlara layiq görülən professor T.Əfəndiyev onlarla elmlər namizədi və doktorlar yetişdirmişdir.

Böyük vətənpərvər vətəndaş, geniş qəlbli insan, professor T.Əfəndiyevə gələcək elmi-pedaqoji fəaliyyətində yeni-yeni yaradıcılıq uğurları diləyir və Tanrının onun üzərində olan nəzərinin daima tükənməzliyini arzulayırıq.

**İlqar Hüseynov,**
**kulturologiya elmləri doktoru**